Azərbaycan Respublikasının Prezidenti
yanında Qiymətli Kağızlar üzrə Dövlət
Komitəsi sədrinin

02 fevral 2000-ci il tarixli
020 №-li Əmri ilə təsdiq edilmişdir

(02 iyul 2004-cü il tarixli 097 №-li
24 oktyabr 2007-ci il tarixli 148 №-li
Əmrlərin redaksiyasında)

**Qiymətli kağızlar bazarında peşəkar fəaliyyəti həyata keçirən hüquqi və fiziki şəxslərin peşəkar fəaliyyətinin növləri ilə eyni zamanda məşğul olması üzrə**

# T Ə L Ə B L Ə R

1. Bu tələblər «Qiymətli kağızlar haqqında» Azərbaycan Respublika-sının Qanununun və Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 26 iyul tarixli, 161 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi haqqında Əsasnamə»nin tələblərinə uyğun olaraq hazırlanmış və broker, diler, qiymətli kağızların idarə edilməsi üzrə, qarşılıqlı öhdəliklərin müəyyən edilməsi üzrə (klirinq), depozitar, qiymətli kağızların sahiblərinin reyestrinin aparılması üzrə, qiymətli kağızlar bazarında fond birjası fəaliyyət növləri ilə eyni zamanda məşğul olmasına məhdudiyyətlər üzrə tələbləri müəyyən edir.

2. Broker fəaliyyətinin diler, qiymətli kağızların idarə edilməsi üzrə fəaliyyət növlərindən başqa qiymətli kağızlar üzrə peşəkar fəaliyyətin digər növləri ilə eyni zamanda həyata keçirilməsinə yol verilmir.

3. Diler fəaliyyətinin broker, qiymətli kağızların idarə edilməsi üzrə fəaliyyət növlərindən başqa qiymətli kağızlar üzrə peşəkar fəaliyyətin digər növləri ilə eyni zamanda həyata keçirilməsinə yol verilmir.

4. Qiymətli kağızların idarə edilməsi üzrə fəaliyyətinin diler, broker fəaliyyət növlərindən başqa qiymətli kağızlar üzrə peşəkar fəaliyyətin digər növləri ilə eyni zamanda həyata keçirilməsinə yol verilmir.

Qiymətli kağızların idarə edilməsi üzrə fəaliyyət ilə məşğul olan fiziki şəxslərə qiymətli kağızlar üzrə peşəkar fəaliyyətin digər növlərinin eyni zamanda həyata keçirilməsinə yol verilmir.

5. Qarşılıqlı öhdəliklərin müəyyən edilməsi üzrə fəaliyyətinin (klirinqin), depozitari və qiymətli kağızların sahiblərinin reyestrinin aparılması üzrə fəaliyyət növlərindən başqa qiymətli kağızlar üzrə peşəkar fəaliyyətin digər növləri ilə eyni zamanda həyata keçirilməsinə yol verilmir.

6. Fond birjası fəaliyyəti ilə məşğul olan şəxs yalnız dövlət qiymətli kağızları və ticarət sessiyası müddəti ərzində digər qiymətli kağızlar üzrə depozitar və klirinq fəaliyyətləri istisna olmaqla, qiymətli kağızlar üzrə peşəkar fəaliyyətin digər növləri ilə məşğul ola bilməz.

7. Depozitari fəaliyyətinin qarşılıqlı öhdəliklərin müəyyən edilməsi üzrə fəaliyyət (klirinq) və qiymətli kağızların sahiblərinin reyestrinin aparılması üzrə fəaliyyət növlərindən başqa qiymətli kağızlar üzrə peşəkar fəaliyyətin digər növləri ilə eyni zamanda həyata keçirilməsinə yol verilmir.

8. Qiymətli kağızların sahiblərinin reyestrinin aparılması üzrə fəaliyyətin depozitari, qarşılıqlı öhdəliklərin müəyyən edilməsi üzrə (klirinq) fəaliyyət növlərindən başqa qiymətli kağızlar üzrə peşəkar fəaliyyətin digər növləri ilə eyni zamanda həyata keçirilməsinə yol verilmir.

9. Bu tələbləri pozanlar mövcud qanunvericilik aktlarına müvafiq qaydada məs'uliyyət daşıyırlar.

10. Bu Tələblər imzalandığı gündən qüvvəyə minir.